***Tarix boyu dünyada minlərlə müharibə olub. Hətta həmin müharibələrin yüz illər boyu davam edəni də var. Buna baxmayaraq, nəticədə, bütün müharibələr sülhlə, barışla və birgə əməkdaşlıqla başa çatıb. Lakin burada xüsusilə vurğulanmalı daha mühüm bir reallıq da var. Belə ki, sonda sülh sazişinə razılaşanların biri həmin sənədi qalib kimi, digəri isə məğlub olaraq imzalayır. Sevinc və qürurla qeyd edirik ki, Prezident İlham Əliyev öz xalqının adını nəinki türk tarixinə, ümumiyyətlə, dünya hərb tarixinə ləyaqətlə müharibə aparıb qalib gələn xalq kimi yazdırdı.***



# Milli iradə, milli ruh və milli ləyaqətin təntənəsi

Bu məqamda hörmətli oxucuların nəzərinə çatdıraq ki, ermənilər özlərini otuz il qalib kimi təqdim etməyə çalışsalar da, dünya ictimaiyyəti bizi heç zaman məğlub hesab etmirdi. Çünki biz nəinki hansısa sülh sazişinə, hətta müharibənin başa çatmasını bildirən hansısa bir sənədə imza atmamışdıq. Biz ordu quruculuğuna nail olmaq üçün cəbhədə atəşkəsi təmin edən məlum sənədi imzalamışdıq və həmin sənədin imzalandığı 1994-cü ilin mayından 2020-ci il sentyabrın 27-dək dövri olaraq xatırladırdıq ki, münaqişə sülh danışıqları ilə həll olunmasa, hərbi variantın seçilməsi bizim legitim hüququmuzdur. Ermənistanın isə bu gün hansısa hərbi əməliyyatlara başlamaq üçün heç bir hüququ yoxdur. Çünki onlar kapitulyasiya aktını imzalayıblar. Özü də təkcə münaqişədə olan tərəflər arasında yox, regionun ən güclü dövlətlərindən birinin prezidentinin iştirakı ilə üçtərəfli sənəd imzalanıb.

Azərbaycan xalqı məmnundur ki, biz 1994-cü ildə imzaladığımız atəşkəs haqqında müqavilənin nəticəsini ötən ilin payızında gördük. Ulu öndər Heydər Əliyevin ordu quruculuğunu təmin etmək məqsədi ilə razılaşdığı atəşkəsin yaratdığı imkanlar Ermənistan ordusunun darmadağın edilməsi, işğalçı dövlətin diz çökdürülməsi, əsrlər boyu davam edən erməni miflərinin puç olması ilə nəticələndi.

Bu faktın daha dəqiq ifadə edilməsini Üçtərəfli Bəyanatın imzalanmasından bir ay sonra – ötən il dekabrın 10-da Bakıda keçirilmiş möhtəşəm Zəfər paradında Prezident İlham Əliyevin dilindən eşitdik. Dövlət başçımız vurğuladı ki, biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, ordumuzu gücləndirirdik.

Təbii ki, bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ali Baş Komandan dedi: “Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik. Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi”.

Bir daha xatırladaq ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın haqlı və ədalətli olmasına baxmayaraq, hərbi əməliyyatlara biz başlamamışdıq. Biz, sadəcə olaraq, Ermənistanın növbəti təxribatlarına cavab vermişdik və qəfil üzləşdiyimiz ağır artilleriya atəşləri nəticəsində həm mülki əhali, həm də hərbçilərimiz arasında itgilərə görə səbr kasamız daşmışdı.

> ***Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Bu məqamı Prezident, müzəffər Ali Baş Komandan sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa ünvanladığı müraciətdə daha konkret şəkildə ifadə edib. Dövlət başçımız xatırladır ki, həmin namərd atəş nəticəsində ilk saatlarda mülki şəxslər, hərbçilər həlak olmuşdur: “Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam qələbə qazanmışdır”.

Fakt ondan ibarətdir ki, dövlətimiz, prezidentimiz, ordumuz və xalqımız son 17 ildə torpaqlarımızı düşmən tapdağından azad etmək üçün prinsipial mövqe ortaya qoymuş, qətiyyətli hazırlıq işləri görmüş, cəbhənin bütün istiqamətlərində rəşadətli müharibə aparmış və düşməni diz çökdürərək, ləyaqətli qələbəyə nail olmuşdur. Dövlət başçımızın fikrincə, bu müharibə milli iradə, milli ruh, milli ləyaqətin təntənəsi idi.

Artıq orta məktəb şagirdlərindən Ali Baş Komandana qədər hamının yekdil qənaətidir ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Azərbaycan Prezidenti deyir ki, bu qələbə tarixdə əbədi qalacaq. Doqquzuncu sinif şagirdi İntizar Əliyevanın sosial şəbəkədəki qeydlərində isə qeyd edilir ki, İlham Əliyev Azərbaycan xalqına növbəti əsrlərdə də fəxr edə biləcəyimiz tarixi zəfəri bəxş etdi.

Bu günlərdə sosial şəbəkədə səksəndən çox yaşı olan Qərib İbrahimovun fikirlərinə rast gəldim: “Bu müharibədir. Biri qalib gəlir, biri məğlub olur. Tarix boyu bizim məğlubiyyətlərimiz də az olmayıb. Ancaq mən İlham Əliyevə ona görə minnətdaram və ona görə “bu xalqın çörəyi ona halal olsun!” deyirəm ki, o, bir erməni uşağının, erməni qadınının, əlilin, gəzə bilməyən qocanın, hətta sağlam, cavan mülki şəxsin öldürülməsinə imkan vermədi. O, təkcə qələbə ilə yox, bu mərdanəliklə, kişilik qeyrəti ilə də tarixə düşdü. Ermənilər isə Xocalıda uşaqları qırmış, Kəlbəcərdə anadangəlmə əlil olan, araba ilə gəzən köməksiz adamı arabası ilə bərabər yandırmışdılar”.

Xatırladaq ki, dövlət başçımız hələ döyüşlərin getdiyi günlərdə – noyabrın 6-da “BBC News”a verdiyi müsahibədə dünya ictimaiyyətinin nəzərinə çatdırmışdı ki, heç kəs ermənilərlə azərbaycanlıların mənəvi keyfiyyətlərini müqayisə etməsin. Çünki bu müqayisə mümkün deyil: “Biz ermənilər deyilik. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Onlar Dağlıq Qarabağdan və ətraf yeddi rayondan bütün azərbaycanlıları qovublar. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bizim bir milyon qaçqın və məcburi köçkünümüz var. Lakin biz eyni qaydada davranmayacağıq. Biz qisas almayacağıq. Mən dəfələrlə demişəm, hətta onlar Gəncəni bombalayanda, hətta onlar Bərdəni bombalayanda, onlar başqa şəhərləri bombalayanda və 92 insanı, mülki şəxsi öldürdükdə mən dedim ki, biz qisasımızı döyüş meydanında alacağıq”. Aldıq və namərd qonşularımızın bütün planlarını cəhənnəmə vasil etdik.

Sonda qeyd edək ki, bizim 44 günlük müharibədəki zəfərimizi “ləyaqətli” edən əsas amillərdən biri də bu qələbənin kompleks şəkildə qazanılmasıdır. Yəni təkcə cəbhədə deyil, siyasətdə, diplomatiyada, informasiya müharibəsində – ümumiyyətlə, bütün sahələrdə qələbə bizim oldu. Bu məqamı dövlət başçımız xalqa müraciətlərindən birində daha aydın şəkildə ifadə etmişdi: “ Əgər Vətən müharibəsi dövründə xarici mətbuata diqqət yetirsək, görərik ki, əlbəttə, qərəzli, islamofob, anti-Azərbaycan, ermənipərəst məqalələr və reportajlar üstünlük təşkil edir. Ancaq, eyni zamanda, əvvəlki dövrdən fərqli olaraq bir çox obyektiv, həqiqəti əks etdirən reportajlar, məqalələr də dərc edildi. Deyə bilərəm ki, biz informasiya müharibəsində qələbə qazandıq. Biz döyüş meydanında qələbə qazandıq, informasiya məkanında qələbə qazandıq, siyasi müstəvidə qələbə qazandıq. Müharibənin nəticələri mən deyən kimi oldu”.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***